

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 noyabr 2022-ci il №88 (2699) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Albaniya Respublikasına dövlət səfərinə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Albaniyanın Baş nazirinin müavini, infrastruktur və energetika naziri xanım Belinda Balluku və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniyanın paytaxtı Tiranadakı "Brigades" Sarayında rəsmi qarşılanma mərasimi olub.

Azərbaycanın və Albaniyanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verib.

Azərbaycanın və Albaniyanın Dövlət himnləri səslənib. Prezidentlər fəxri qarovul dəstəsinin qarşısından keçiblər.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Bayram Beqaya, Albaniyanın dövlət və hökumət nümayəndələri isə Prezident İlham Əliyevə təqdim edilib.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

* * *

Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə təkbətək görüşü olub.

Görüşdə iki ölkə arasında qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

* * *

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Albaniya Respublikasının Prezidenti Bayram Beqay mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Albaniya dövlətinin başçısı çıxış edib.

### Prezident Bayram Beqayın bəyanatı

- Hörmətli Prezident Əliyev.

Əziz dostlar.

Hörmətli iştirakçılar.

Bu gün mən Azərbaycan Prezidenti cənab İlham Əliyevi burada - Tiranada böyük məmnunluqla qəbul edirəm.

Cənab Prezident, bizim dəvətimizi qəbul etdiyinizə, bizimlə apardığınız məhsuldar əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Bu, əlaqələrimizin tarixində ilk mühüm dövlət səfəridir. Azərbaycan Prezidenti ölkəmizə səfər edib. Belə yüksək səviyyəli səfər münasibətlərimizin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı iradəmizin təzahürüdür.

Ölkələrimiz arasında aparılan dialoqa görə dərin təşəkkürümü bildirirəm. Cənab Prezident, çox yaxşı haldır ki, Siz bu gün ölkəmizdəsiniz. Əslində, bu, qarşılıqlı maraq doğuran əməkdaşlığın yeni sahələrini açır. Albaniya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada Azərbaycan Həftəsini keçirmək niyyətindəyik. Əslində, bu tədbir ölkənizin burada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz, həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür.

Bu gün aparılan müzakirələr xüsusilə vacibdir, çünki biz gələcək üçün yeni istiqamətləri müəyyən edirik, bizim üçün maraqlı olan sahələri təyin edirik. Bununla qeyd etmək istərdik ki, Birgə Komitənin iclası əlaqələrimizi daha da möhkəmləndirə bilər. Beləliklə Albaniya enerji, infrastruktur, turizm, kənd təsərrüfatı və sənaye sahələrində əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Əlbəttə ki, enerji sahəsində İon-Adriatik boru kəməri Albaniyanı, Monteneqronu, Xorvatiyanı birləşdirərək, ölkələrimizin geosiyasi əhəmiyyətini artırır və regional, o cümlədən Avropa səviyyəsində qaz təchizatının şaxələndirilməsini nümayiş etdirir. Bilirik ki, bu sahədə ölkənizin sərmayə qoyuluşu baxımından təcrübəsi var. Albaniya, həmçinin öz ərazisində tranzit imkanlarından istifadəyə çox açıqdır və hazırdır. Qaz infrastrukturumuzdan bu məqsədlə tam istifadə olunmasını mümkün hesab edirik. Bu sahədə daha böyük nəticələrin əldə olunmasını səmimiyyətlə arzu edirik. Beləliklə, biz əməkdaşlığımızın yeni yollarını açırıq və bu məqsədlə Azərbaycan tərəfinin göstərəcəyi səyləri alqışlayırıq. Fikrimizcə, birgə işləyərək öz imkanlarımızı səfərbər edə biləcəyik və daha da genişləndirəcəyik.

Əslində, turizm ölkələrimizin iqtisadiyyatlarının digər mühüm sahəsidir. Azərbaycan uğurlu təcrübəni özündə əks etdirir. Biz bundan yararlana bilərik. Mən cənab Prezidentə bəyan etdim ki, bu sahədə Azərbaycan tərəfindən qoyulacaq sərmayələri yüksək dəyərləndirərdik. Eyni zamanda, mədəniyyət sahəsində birgə işləməliyik ki, xalqlarımız daha yaxın olsun, bir-birini tanısın. Bununla bağlı iki tərəf arasında yeni sazişlər imzalana bilər. Bilirik ki, mədəniyyət və incəsənət sahəsinə aid olan minlərlə eksponat nümayiş etdirilə bilər. Cənab Prezident, mən Sizə bildirdim ki, bu, irsimizin qorunmasına töhfə verəcəkdir. 2019-cu ildə baş vermiş zəlzələdə də göstərilən yardımı yüksək dəyərləndiririk.

İstərdik bildirək ki, Ukraynada gedən müharibə və onun nəticələrinə gəldikdə, biz ümumi mövqedən çıxış edirik: diplomatiya və dialoq irəliyə doğru aparan əsas yoldur. Bu, həmçinin Cənubi Qafqaz və digər bölgələr üçün də vacibdir. Albaniya Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəkləyib və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verib. Ukraynadakı müharibəyə gəldikdə, bəyan edirəm ki, biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik və istəyirik ki, bu məsələ sülh yolu ilə, beynəlxalq hüquq normaları əsasında öz həllini tapsın. Mən, həmçinin bildirdim ki, ölkələrimiz arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq aparılır.

(Ardı 3-cü səhifədə)

### Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

İstanbulun mərkəzində törədilmiş xain partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbərindən olduqca sarsıldıq.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 noyabr 2022-ci il

### Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğana

Hörmətli Əminə xanım,

İstanbul şəhərində baş vermiş partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbəri bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

Dərin hörmətlə,

**Mehriban Əliyeva**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Bakı şəhəri, 13 noyabr 2022-ci il

### Azərbaycanın müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "İstanbulun mərkəzində törədilmiş xain partlayış nəticəsində insanların həlak olması və xəsarət alması xəbərləri məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Bu faciə nəticəsində həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara şəfa diləyirəm.

Allah rəhmət eləsin".

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak etmək üçün noyabrın 10-da Özbəkistan Respublikasına səfər edib.

Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

* * *

IX Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva bir sıra görüşlərdə və tədbirlərdə iştirak edib. Həmçinin "Ümumi evimiz olan Dünya üçün Sıfır Tullantı üzrə Qlobal öhdəliyə dair Bəyannamə" imzalanıb.

Türkiyə Respublikasının təşəbbüsü ilə hazırlanan Bəyannaməni Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva, Macarıstanın Baş nazirinin xanımı Aniko Levai imzalayıblar.

Qeyd edək ki, Bəyannaməni BMT-nin Baş katibi Antonio Quterreş də imzalayıb.

* * *

Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşılayıb.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Dövlət Başçıları Şurasının iclasını açaraq qonaqları salamlayıb və çıxış edib, müzakirə olunacaq məsələlərdən, Türk Dövlətləri Təşkilatının qarşısında duran vəzifələrdən və əməkdaşlığın genişləndirilməsi perspektivlərindən danışıb.

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Səmərqənd Sammitinin türk dövlətləri arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyini vurğulayıb, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin ikinci ildönümü münasibətilə təbriklərini çatdıraraq deyib: "Cənubi Qafqazda sülh prosesi Can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ Zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq".

Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdığı nəhəng layihələrin dünya miqyasında mühüm əhəmiyyətini xüsusi qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirib: "Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qlobal miqyasda ən uğurlu enerji layihələri arasındadır. Cənub Qaz Dəhlizi isə Avropaya qaz nəql edəcək dördüncü arteriya olaraq layihələndirilib. Onurğa sütununu Trans-Anadolu təbii qaz boru kəmərinin təşkil etdiyi bu dəhliz əlavə qaz tədarükü ilə daha da genişləndirilə bilər. Xəzər hövzəsi bunun üçün ağla ilk gələn mənbədir. Enerji sahəsində təşkilatımızın nəzdində və ikitərəfli səviyyədə əməkdaşlıqla həyata keçirəcəyimiz ortaq layihələrə bu baxımdan böyük önəm veririk".

Dövlətimizin başçısı Zirvə Görüşündə çıxış edib.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

- Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Son 7 ayda üçüncü dəfə qardaş Özbəkistana səfər edirəm. Aprel ayında Özbəkistanda dövlət səfərində olmuşam, sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə Görüşündə iştirak etmişəm. Bu gün yenidən Səmərqənd şəhərində olmaqdan çox məmnunam.

Bu səfərlər zamanı Özbəkistanda gedən genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanım olmuşdur. Əldə edilmiş nailiyyətlər münasibətilə qardaşım, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və qardaş özbək xalqını təbrik edirəm. Səfərlər zamanı Prezident Şavkat Mirziyoyev ilə apardığım müzakirələr onu göstərir ki, Azərbaycan-Özbəkistan əlaqələri daha da yüksək səviyyəyə qalxmışdır.

Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident Şavkat Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Qardaş Türkiyəyə bir il ərzində təşkilatımızda uğurlu sədrlik münasibətilə təşəkkür edir, qardaş Özbəkistana sədrliyi dönəmində uğurlar arzulayıram.

Hörmətli həmkarlar, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir.

Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük təbii sərvətlər, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir.

Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğraması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır.

Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur.

Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır.

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

Hörmətli həmkarlar, bu həftə Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd etdi. İki il əvvəl biz Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyduq, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etdi.



Otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir.

Ermənistan işğal zamanı bizim ərazilərimizdə bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən ötən iki il ərzində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq. Bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

Mən digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək, mən işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm. Bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il keçməsinə baxmayaraq, Ermənistan sərhəddə hərbi təxribatları davam etdirir. Son olaraq sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-hücum əməliyyatına başlamağa məcbur oldu.

Ermənistan dünya ictimai rəyini çaşdırmaq üçün əsassız olaraq Azərbaycanı hərbi təcavüzdə günahlandırmağa çalışır. Bu əsassız iddiaları qəti şəkildə rədd edirik. Biz öz torpaqlarımızda vuruşmuşuq və Ermənistan ordusunu məğlub edərək onları əzəli torpaqlarımızdan qovmuşuq. Biz bu gün də Azərbaycan-Ermənistan sərhədi istiqamətində öz doğma torpaqlarımızdayıq.

Oktyabr ayında Praqada və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Bu, bir daha onu göstərir ki, Qarabağ münaqişəsi tarixdə qaldı.

İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Əziz dostlar, biz Bağdad Amreyevin Türk Dövlətləri Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndiririk. Türk dünyasının birliyinə verdiyi töhfə və xidmətləri nəzərə alınaraq, Bağdad Amreyev Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilmiş və oktyabr ayının 21-də bu orden mənim tərəfimdən ona təqdim edilmişdir. Bir daha təbrik edirəm.

Çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm ki, biz Özbəkistanı bu Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə görə təbrik edirik, türk dünyası xalqlarına sülh, rifah, xoşbəxtlik arzulayırıq. Sağ olun.

Daha sonra bir sıra sənədlər, o cümlədən Səmərqənd Bəyannaməsi imzalanıb və mükafatlandırma mərasimi olub.

* * *

Sonda xatirə şəkli çəkdirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına səfəri noyabrın 11-də başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Prezidenti İlham Əliyevin Albaniyaya dövlət səfəri

(Əvvəli 1-ci səhifədə)

BMT Təhlükəsizlik Şurasına Albaniyanın namizədliyinə, o cümlədən ATƏT-in sədrliyinə dəstək verilməsi ilə bağlı müraciət etdim. Əlbəttə ki, namizədliyə gəldikdə, bizim əməkdaşlığımız bu baxımdan gələcəkdə də davam etdirilməlidir.

Digər məsələlərə gəldikdə, mən cənab Prezidentə bildirdim ki, Kosovo Albaniya üçün çox əhəmiyyətlidir və bu, nəinki sabitlik, həm də bütöv regionun tərəqqisi üçün vacibdir. Parlamentlərarası əməkdaşlığa gəldikdə, Albaniya və Azərbaycan arasında dostluq qrupları fəaliyyət göstərir. Bu istiqamətdə atılacaq addımlar çox ola bilər. İstərdik ki, parlamentlərimiz bir-biri ilə sıx əməkdaşlıq etsinlər.

Yekun olaraq bildirmək istəyirəm ki, bizim ikitərəfli münasibətlərimizə gəldikdə, gedəcəyimiz yol və əldə edəcəyimiz nəticələr çoxdur. Buna görə, mən dostluq əlaqələrimizə, ölkələrimiz arasında münasibətlərə çox yaxşı gələcək arzu edirəm.





Cənab Prezident, gəldiyinizə görə çox sağ olun. Bir daha, Albaniyaya xoş gəlmisiniz. Çox sağ olun, cənab Prezident.

* * *

Sonra Azərbaycan dövlətinin başçısı çıxış edib.

**Prezident İlham Əliyevin bəyanatı**

- Hörmətli cənab Prezident. Hörmətli xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, dəvətə və göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən gözəl ölkənizə ilk dəfə səfər edirəm və burada olmağımdan çox məmnunam. Əminəm ki, bu səfər Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verəcək. Biz Sizinlə bu gün təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik və əmin olduğumuzu bildirdik ki, gələcək yaxın əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Siyasi dialoqa gəldikdə, Albaniya prezidentləri əvvəlki illərdə Azərbaycana dəfələrlə səfər etmişdilər. Bu il keçmiş Prezident Meta Azərbaycanda səfərdə idi. Eyni zamanda, bu ilin aprel ayında Baş nazir Edi Rama da bizim qonağımız idi. Bu gün mənim səfərim onu göstərir ki, siyasi dialoqun çox gözəl təzahürləri var və çox güclü dinamizm var. Yəni, bu sıx siyasi təmaslar, əlbəttə, bizim niyyətimizi, bir-birimizə olan marağı göstərir, eyni zamanda, imkan verir ki, çox önəmli məsələlər müzakirə edilsin.

Beynəlxalq təşkilatlardakı uğurlu əməkdaşlığımız da bizim əlaqələrimizi gücləndirir. Siz qeyd etdiniz ki, Albaniya həmişə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bu dəstək həmişə qarşılıqlı olub, biz bunu çox yüksək qiymətləndiririk. Həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsi dövründə Albaniya rəsmilərinin bəyanatlarını, Azərbaycanın ərazi bütövlüyünə göstərilən dəstəyi biz çox yüksək qiymətləndiririk.

Biz İkinci Qarabağ müharibəsinin nəticəsi olaraq öz əzəli torpaqlarımızı işğalçılardan azad etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik. Siz BMT Təhlükəsizlik Şurasının qətnamələrinə toxundunuz. Qeyd etməliyəm ki, bu qətnamələr 1993-cü ildə qəbul olunmuşdur. Ancaq bu qətnamələr 27 il ərzində icra edilmirdi. Ermənistan bu qətnamələrin icrasına maraq göstərmirdi, faktiki olaraq məhəl qoymurdu, beynəlxalq ictimaiyyət, beynəlxalq birlik isə sadəcə olaraq, buna göz yumurdu və Ermənistana hər hansı bir sanksiya tətbiq edilməmişdir. Baxmayaraq ki, dəfələrlə Azərbaycan məsələ qaldırmışdır ki, Ermənistana qarşı sanksiyalar tətbiq edilsin, Ermənistan cəzalandırılsın. Çünki Azərbaycan ərazisinin 20 faizini işğal etmək böyük cinayətdir və işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma aparmaq hərbi cinayətdir. Orada törədilmiş dağıntılar faktiki olaraq o torpaqları tamamilə cansız edib. Mən Sizə məlumat verdim ki, ermənilər işğal dövründə 67 məsciddən 65-ni yerlə-yeksan etmişlər, qalan iki məsciddə isə heyvan - inək, donuz saxlamışlar və bütün müsəlmanların hisslərinə toxunmuşlar.

Biz bu məsələni təkbaşına həll etdik, ədaləti bərpa etdik və azad edilmiş torpaqlarda indi Azərbaycan Bayrağı dalğalanır. Biz bu torpaqlara qayıtmışıq və bu torpaqlara həyat qayıdır. Xalqımız, dövlətimiz üçün əsas olan məsələdə ölkənizin bizə dəstək verməsi, əlbəttə ki, bizim üçün çox önəmlidir və bir daha buna görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

Mən Sizin fikrinizə qoşuluram ki, iqtisadiyyat və sənaye üzrə yaradılmış müştərək işçi qrupu tezliklə birinci iclasını keçirməlidir. Çünki müzakirə ediləsi məsələlər çoxdur. Biz bu gün Sizinlə qaz sahəsində əməkdaşlıq barədə danışdıq, həm əldə edilmiş nailiyyətlər, həm də görüləcək işlər haqqında fikir mübadiləsi apardıq. Ancaq əməkdaşlıq üçün enerji sektorundan başqa da çox yaxşı imkanlar var - qarşılıqlı sərmayə qoyuluşu, Albaniya və Azərbaycan şirkətlərinin birgə fəaliyyəti, birgə müəssisələrin yaradılması, turizm, kənd təsərrüfatı, müasir texnologiyalar sahələri. Bilirəm ki, bütün bu sahələr Sizin ölkəniz üçün də və bizim üçün də prioritet təşkil edir. Ona görə, əminəm ki, biz bu istiqamətlər üzrə inamla addımlayacağıq.

O ki qaldı, qaz təchizatı məsələlərinə, Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir və Cənub Qaz Dəhlizinin icrasında bizim ölkələrimiz çox önəmli rol oynayıblar. Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bir çox toplantılarında Albaniya nümayəndələri həmişə çox fəal iştirak etmişlər. Bu gün Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanmışdır. Həmin Memorandum əsasında biz 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindəyik. Təbii ki, o qaz Albaniya ərazisindən keçəcək, beləliklə, Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcəkdir.

Bizim qaz ehtiyatlarımız çox zəngindir. Hazırda həm TAP, həm TANAP qaz kəmərlərinin iki dəfə genişləndirilməsi məsələsi müzakirə olunur. Yəni, bu layihə - Cənub Qaz Dəhlizi cəmi iki ilə yaxındır ki, istismardadır. Amma artıq Cənub Qaz Dəhlizinin ayrılmaz hissəsi olan bu hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Yəni, bu, onu göstərir ki, buna böyük ehtiyac var, tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən artıq etibarlı tərəfdaş kimi tanınır və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük.

Eyni zamanda, biz Sizinlə bu gün Albaniyada qaz təsərrüfatının inkişafına verə biləcəyimiz töhfə haqqında da danışdıq. Bu məsələ ilə bağlı bizim fikirlərimiz var. Albaniyada bu günə qədər qaz şəbəkəsi yaradılmamışdır. Azərbaycan bu sahədə də investor kimi iştirak edə bilər və biz buna hazırıq. Bu gün bu məsələni və energetika sahəsi ilə bağlı olan digər məsələləri bundan sonra da müzakirə edəcəyik.



Daha bir məsələyə də toxunmaq istəyirəm, Azərbaycanın NATO ilə sıx əməkdaşlıq platforması var. Biz uzun illər Əfqanıstanda NATO-nun əməliyyatlarında fəal iştirak etmişik. Demək olar NATO-ya üzv olmayan ölkələr arasında birincilər sırasında idik ki, biz sülhməramlı missiyaya qoşulduq. Biz Əfqanıstandan çıxan son iki ölkə arasındayıq - son iki ölkə Türkiyə və Azərbaycan idi. Qalan bütün NATO üzvləri bizdən qabaq oradan çıxmışdılar. Yəni, demək istəyirəm ki, bu da bizim məsuliyyətimizin təzahürüdür. Albaniya da NATO-nun üzvü kimi NATO-Azərbaycan əlaqələrinə həmişə böyük dəstək vermişdir. Buna görə də mən Sizə minnətdaram.

Çıxışımın sonunda mətbuat qarşısında Sizi Azərbaycana rəsmi səfərə dəvət etmək istəyirəm. Dəvətə və qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə rəsmi lanç əsnasında geniş tərkibdə görüşü olub.

* * *

Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tiranada "Mother Albania" abidəsini ziyarət edib.

Prezident İlham Əliyev abidənin önünə əklil qoyub.

Məlumat verilib ki, Milli Qəhrəmanlar xiyabanında yerləşən on iki metrlik "Mother Albania" abidəsi 1971-ci ildə ucaldılıb. Nəhəng abidə Albaniya uğrunda canını qurban verərək həlak olmuş əsgərləri qoruyan bir ananı təcəssüm etdirir. Ana heykəli əlində dəfnə çələngi və ulduz tutub. Abidə üçmetrlik postament üzərində ucaldılıb. Postamentin üzərində "Vətən şəhidlərinə əbədi eşq olsun!" sözləri yazılıb.

Sonra dövlətimizin başçısı şəhərin mənzərəsini seyr edib.

* * *

Noyabrın 15-də Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Baş naziri Edi Rama ilə təkbətək görüşü olub.

Görüşdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olunub, fəal siyasi dialoqun həyata keçirildiyi bildirilib.

Söhbət zamanı Albaniyanın Baş naziri Edi Ramanın bu ilin aprelində Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsi işində önəmi qeyd olunub. İqtisadi və enerji sahələrində əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Sonra Prezident İlham Əliyevin şərəfinə Baş nazir Edi Rama tərəfindən nahar verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına dövlət səfəri noyabrın 15-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Tirana şəhərinin Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın müdafiə naziri Gürcüstana rəsmi səfəri





Noyabrın 14-də Azərbaycan Respublikasının müdafiə



naziri general-polkovnik Zakir Həsənov Gürcüstanın müdafiə naziri cənab Caunşer Burçuladzenin dəvətilə bu ölkəyə rəsmi səfər edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, general-polkovnik Zakir Həsənov Tbilisidəki Heydər Əliyev parkına gəlib, burada Ulu Öndərin abidəsini ziyarət edib, önünə əklil qoyaraq xatirəsini hörmət və ehtiramla anıb.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənovun Gürcüstanın hərbi-siyasi rəhbərliyi ilə bir sıra görüşlərinin keçirilməsi planlaşdırılır.

* * *

Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 14-də bu ölkənin müdafiə naziri cənab Cuanşer Burçuladze ilə görüşüb.

Gürcüstan Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi təşkil edilib. Protokola uyğun olaraq, müdafiə nazir-



ləri Fəxri Qarovulun önündən keçib, hərbi orkestrin müşayiəti ilə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Tərəflər regional təhlükəsizlik, hərbi əməkdaşlığın inkişaf perspektivləri, birgə hərbi təlimlərin keçirilməsi və işçi görüşlərin təşkili barədə ətraflı fikir mübadiləsi aparıblar.

Görüşdə, həmçinin hərbi, hərbi-texniki, hərbi-təhsil, hərbi-tibb sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Yekunda hər iki ölkənin müdafiə nazirlikləri arasında 2023-cü il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 14-də Gürcüstanın Baş naziri cənab İrakli Qaribaşvili ilə görüşüb.

Əvvəlcə general-polkovnik Zakir Həsənov nümayəndə heyəti ilə birgə Tbilisinin mərkəzindəki Qəhrəmanlar meydanını ziyarət edib və Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olanların abidəsi önünə əklil qoyub.

Sonra müdafiə naziri Gürcüstanın Baş naziri ilə görüşüb.

Görüşdə Azərbaycan-Gürcüstan münasibətlərinin dostluq və qarşılıqlı etimad üzərində quruldüğu qeyd olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin cari ilin oktyabr ayında Gürcüstana işgüzar səfərinin xüsusi əhəmiyyətə malik olduğu qeyd edilib və ümumilikdə dövlət başçılarının mütəmadi gö-



rüşlərinin əlaqələrimizin daha da güclənməsinə təkan verdiyi vurğulanıb.

Tərəflər regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq ölkələrimizin ərazi bütövlüyünün qarşılıqlı şəkildə dəstəklənməsinin vacibliyini qeyd edib, ikitərəfli hərbi əməkdaşlığın inkişafının bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunmasına töhfə verəcəyini bildiriblər.

* * *

Gürcüstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov noyabrın 15-də Qori şəhərindəki David Ağmaşenebeli Milli Müdafiə Akademiyasını ziyarət edib.

Müdafiə naziri akademiyanın rektoru briqada generalı Mamia Balaxadze ilə görüşüb. Görüşdə hərbi təhsil sahəsində qarşılıqlı təcrübə mübadiləsi, eləcə də bu sahənin inkişaf perspektivləri müzakirə olunub.

Sonra general-polkovnik Zakir Həsənov akademiyanın "Şərəf kitabı"nı imzalayıb.

Milli Müdafiə Akademiyası ilə tanışlıqdan sonra general-polkovnik Zakir Həsənov kursantların idman yarışını izləyib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.





# Müdafiə naziri Türkiyə Respublikasının hərbiyönümlü QHT rəhbərləri ilə görüşüb





Azərbaycanda səfərdə olan Türkiyə Respublikasının hərbiyönümlü qeyri-hökumət təşkilatlarının (QHT) rəhbərləri cənab Erdoğan Karakuş, cənab Hamza Dürgen, cənab Mustafa Işık və cənab Beyazıt Yumuk noyabrın 11-də müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirən nazir, Azərbaycan ilə Türkiyə arasında həyata keçirilən ikitərəfli hərbi əməkdaşlığın dostluq, qardaşlıq münasibətləri üzərində qurulduğunu və bundan sonra da uğurla inkişaf edərək güclənəcəyini vurğulayıb.

General-polkovnik Zakir Həsənov qonaqlara Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin tarixi əhəmiyyəti və işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər, eləcə də regiondakı hazırki vəziyyətlə bağlı danışıb.

Müdafiə naziri gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsində bu kimi QHT-lərin mühüm əhəmiyyətə malik olduğunu xüsusi vurğulayıb.

Ölkəmizə səfərdən razı qaldıqlarını ifadə edən nümayəndə heyəti göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. Təşkilat rəhbərləri Azərbaycan Ordusunu bir neçə gün öncə qeyd edilən 8 Noyabr - Zəfər Günü münasibəti ilə təbrik edib, şəhidlərin ailə üzvləri və yaxınlarına başsağlığı veriblər.

Nümayəndələr rəhbərlik etdikləri təşkilatların Türkiyədəki fəaliyyətləri, o cümlədən şəhid ailələri və müharibə veteranları ilə bağlı gördükləri işlər barədə ətraflı məlumat veriblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov: Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında çox uğurlu əməkdaşlıq münasibətləri var

Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında çox uğurlu əməkdaşlıq münasibətləri var. Biz bu əlaqələri daha da inkişaf etdirmək niyyətindəyik.

Bunu Gürcüstanda səfərdə olan Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov AZƏRTAC-a açıqlamasında söyləyib.

Nazir Tbilisidə keçirdiyi görüşlərdə iki ölkənin Müdafiə nazirlikləri arasında müdafiə, hərbi-təhsil və digər sahələrdə münasibətlərin inkişafına dair səmərəli fikir mübadiləsinin aparıldığını, 2023-cü il üçün hərbi əməkdaşlıq planının imzalandığını qeyd edib. General-polkovnik Zakir Həsənov bildirib ki, görüşdə Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli birgə hərbi əməkdaşlığın perspektivləri, üçtərəfli hərbi təlimlərin keçirilməsi, hərbçilərin döyüş qabiliyyətinin artırılması məsələləri də diqqət mərkəzində olub.

Azərbaycan-Gürcüstan dostluğundan danışan general-polkovnik Zakir Həsənov deyib: "Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze ilə birlikdə Botanika bağında Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının məzarlarını da ziyarət etdik. Mən bir daha əmin oldum ki, əlaqələrimiz çox yüksək səviyyədədir və nümunə təşkil edir".

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi ABŞ-ın hərbi attaşesi ilə görüşüb



Noyabrın 12-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki hərbi attaşesi polkovnik Kayl Metyu Koun ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Hərbi İdarəetmə İnstitunda NATO-nun təlim kursu keçirilib



NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən Hərbi İdarəetmə İnstitutunda "NATO-da operativ səviyyədə əməliyyatın qiymətləndirilməsi" təlim kursu keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin ilk günündə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərindən olan hərbi qulluqçularımıza mobil təlim qrupunun nümayəndələri tərəfindən "NATO və hərbi əməkdaşlıq", "NATO-da əməliyyatların planlama prosesi", "NATO-da əməliyyatların qiymətləndirilməsi", "NATO-da əməliyyatların analiz sistemləri" və digər mövzularda brifinqlər təqdim olunub.

Kursda iştirak edən dinləyicilərə aidiyyəti mövzular barədə məlumatlar verilib və müxtəlif məşğələlər təşkil edilib.

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, noyabrın 13-ü axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Bundan başqa, noyabrın 14-ü saat 04:00-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri atəşə tutulub.

Azərbaycan Ordusunun bu istiqamətlərdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Cuanşer Burçuladze: Azərbaycan-Gürcüstan münasibətləri bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf edir

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze bildirib ki, Azərbaycan ilə Gürcüstan arasında münasibətlər bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf edir. Ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi əməkdaşlığımızı bütün sahələrdə daha da dərinləşdirməyə və genişləndirməyə imkan verir.

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə keçirdiyi görüşdə çox mühüm məsələləri, gələn il üçün birgə fəaliyyət planını və əməkdaşlığın perspektivlərini müzakirə etdiklərini, müvafiq sənədin imzalandığını vurğulayan Cuanşer Burçuladze bildirib: "Azərbaycan ilə Gürcüstan iki yaxın dost, qardaş ölkələrdir. Biz bu gün Tbilisidəki Botanika bağında görkəmli azərbaycanlıların panteonunu ziyarət etdik. Bu da bizim necə yaxın olduğumuzu sübut edir".

**AZƏRTAC-ın materialları əsasında**

# Hər insan cəmiyyətdə malik olduğu mənəvi keyfiyyətlərlə tanınır

Azərbaycan xalqı tarixin bütün dönəmlərində özünəməxsus dəyərlərə, adət-ənənələrə bağlı olan yüksək zəkalı, nəcib və xeyirxah qadınları ilə qürur duyub. Mənəvi-əxlaqi keyfiyyətləri ilə seçilən Azərbaycan qadını da xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna rol oynayıb. Azərbaycan qadınının ictimai həyatda fəallığı tarixi ənənələrlə səsləşir. "Kitabi-Dədə Qorqud" dastanlarında kişilərlə qoşa yay atan, cıdırda öndə gedən Burla xatun, Banu Çiçək, Selcan xatun, massagetlərin məğrur hökmdarı Tomris, qəhrəman qadın hökmdar Nüşabə, Şirvana hücum edən Krım xanının qoşunlarını məğlub etmiş Heyran Nisə Bəyim, orta əsrlər tariximizdən Qızıl Arslanın həyat yoldaşı Qətibə xanım, qoca Şərqin ilk diplomat qadını Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, mərkəzləşdirilmiş Azərbaycan dövlətinin qurucusu Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Şuşada ilk ədəbi məclis yaratmış Xurşidbanu Natəvan və adları unudulsa da, fəaliyyətləri əfsanəyə çevrilərək təfəkkürümüzə hopan neçə-neçə Azərbaycan qadını tariximizin silinməz səhifəsidir.

Azərbaycan Demokratik Respublikası Şərqdə qadın hüquqlarını tanıyan ilk dövlətdir!

Böyük Vətən müharibəsində alman faşizmi üzərində Qələbəyə də qəhrəman Azərbaycan qadınları öz töhfələrini veriblər. Onlardan ilk təyyarəçi qadınlardan biri olan Sona Nuriyeva, təyyarəçi və qadınlardan ibarət qırıcı aviasiya polkunun komandir müavini kimi 500-dən artıq döyüş uçuşu həyata keçirmiş kapitan rütbəli Züleyxa Seyidməmmədova, Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi aviasiya mayoru rütbəsinə yüksəlmiş Leyla Məmmədbəyova, o dövrdə dünyada iki qadın gəmi kapitanından biri olan Şövkət Səlimova və başqalarının adlarını çəkmək olar. Onlar qədim qəhrəmanlıq ənənəsinə malik bir xalqı təmsil edirdilər.

Tarixin müxtəlif dönəmlərində mərdlik, şücaət, qəhrəmanlıq mücəssəməsi kimi qəbul edilmiş, döyüş meydanlarında kişilərin yaxın silahdaşları, arxa-dayağı olmuş qadınlarımız Qarabağ müharibəsinin gedişində də kifayət qədər böyük şücaət və mərdlik göstərmişlər. Xalqımız Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Salatın Əsgərova, Gültəkin Əsgərova, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuş Qaratel Hacımahmudova kimi qəhrəman qadınlarla bu gün də qürur duyur, onların xatirəsini əziz tutur.

Son onilliklər ərzində cəmiyyətdə qadının rolunun inkişaf etdirilməsi, gücləndirilməsi istiqamətində ölkəmizdə yüksək templi dövlət siyasəti həyata keçirilir. Bu siyasətin təməli Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin siyasəti nəticəsində Azərbaycan qadını cəmiyyətdə çox əhəmiyyətli bir yerdə qərar tutub. Cəmiyyətdə onun rolunun artırılması üçün davamlı olaraq çox böyük layihələr hazırlanır, həyata keçirilir. Bu siyasət bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurlu bir şəkildə davam etdirilir və qadınların cəmiyyətimizdə rolu durmadan artmaqdadır.



Keçmişə nəzər salanda görürük ki, Azərbaycan tarixinin bütün dövrləri qadınlarımızın qəhrəmanlıq, uğur, mərdlik və cəsarət nümunələri ilə zəngindir. Vətənpərvər qadınlarımız ən ağır işlərin yükünü belə kişilərimizlə çiyin-çiyinə daşımağı bacarırlar. Azərbaycan Ordusunda da şərəfli, mərd, savadlı, bacarıqlı, peşəkar, döyüş təminatı və təminat sahələrinə cəlb olunan, xidmət edən, qarşıya qoyulan tapşırıqları uğurla icra edən, kişilərlə birlikdə hərbi xidmətin çətinliklərinə sinə gərən hərbçi xanımlarımız var. Belə xanımlardan biri də Azərbaycan Ordusunun zabiti Reyhan Murad qızı Maniyevadır.

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə psixoloq vəzifəsində xidmət edən kapitan Reyhan Maniyeva Bakı şəhərində anadan olub. Orta təhsilini şəhid Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseydə alıb. Ali təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetində psixologiya ixtisası, magistratura təhsilini Bakı Dövlət Universitetində hüquqi psixologiya ixtisası üzrə alıb. 2014-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə mülki işçi psixoloq-mütəxəssis kimi fəaliyyətə başlayıb. 2015-ci ildə indiki Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursunu bitirdikdən sonra ona "leytenant" hərbi rütbəsi verilib.

Kapitan Reyhan Maniyeva deyir ki, vətənpərvər bir ailənin övladıyam. "Valideynlərim mənə hər bir kəsin Vətənini öz şəxsiyyətində, mənində yaşatmalı olduğunu öyrədib. Yaşatmalıyıq ki, Vətən yaşasın. Türklər tarix boyu Vətəninin mənfəətini öz mənfəətindən, Vətəninin gələcəyini öz gələcəyindən üstün tutan bir anlayışa, dərin bir Vətən sevgisinə sahib olub.

Uşaqlıqdan hərbi formaya çox böyük marağım və sevgim olub. Düzdü, bu, ilk öncə görüntüylə bağlı olsa da, sonradan ədəbiyyat və tarix dərslərində yaxından tanış olarkən igid, uzaqgörən, müdrik, qəhrəman Azərbaycan xanımlarının cəsarəti məni daha da həvəsləndirib, onların öz sözlərini hər sahədə layiqincə deyə biləcəkləri fikri formalaşdırıb. Bugünkü müasir Azərbaycan cəmiyyətinin əldə etdiyi nailiyyətlər məhz bu tarixi örnəklərə və təcrübəyə söykənir. Soykökümüzdə belə qəhrəman qadınların olması da bu istəyin yaranmasına bir təkandır deyə bilərəm".

Azərbaycan qadını tarixin müxtəlif mərhələlərində cəmiyyət və dövlət üçün faydalı olmağa çalışıb. Müasir dövrdə dünyanın istənilən güc strukturlarında qadınlar fəaliyyət göstərirlər. Respublikamızda da bu təcrübəyə rast gəlirik.

Kapitan Reyhan Maniyeva deyir ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda aparılan uğurlu islahatlar bütün sahələrdə səmərəli nəticələr verir. "Bu uğurlu islahatlardan biri də qadınların orduya cəlb olunmasıdır. Buna görə də dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm. Düşünürəm ki, ürəyində Vətən sevgisi varsa, hərbi xidmətdə qadın və ya kişi olmağın fərqi yoxdur. Xalqını, millətini, dövlətini sevirsənsə, onu qorumağa da hazır olmalısan. Bir də atalarımız nahaq yerə deməyiblər ki, "Aslanın erkəyi dişisi olmaz". Bu gün mən fəxr edirəm ki, qalib ordunun qadın hərbi qulluqçusu olaraq xidmət edirəm".

Reyhan xanım bildirdi ki, magistr təhsilini, başa vurduqdan sonra Azərbaycanda hərbi psixologiya sahəsində ixtisaslı kadrlara ehtiyacın olması fikri məndə bu sahəyə olan marağı daha da artırdı. "Xidmət etdiyim Ümummilli Lider Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yaradılmış Hərbi lisey ordumuzun zabit korpusunun yaradılmasında mühüm və aparıcı rol oynayır. Apardığım xidmət çətin olduğu qədər də şərəflidir. 16-17 yaşlı yeniyetmə gənclərin mülki məktəbdən ayrılıb hərbi təhsilə qədəm qoyması çox məsuliyyətli bir dövrü əhatə edir. Ona görə də onlar liseyə daxil olan kimi nəzarətə alınır və uyğunlaşmalarına xüsusi diqqət yetirilir. Ordumuzun gələcək zabitlərinin intellektli, dünyagörüşü zəngin, iradəli, emosional cəhətdən dayanıqlı şəxsiyyət kimi formalaşması diqqət mərkəzində saxlanılır. Onların mənəvi-psixoloji rifahı üçün apardığım hər bir söhbətə və hər bir mövzuya öncədən ciddi hazırlaşıram.

Hərbi liseydə xaricdə xüsusi təyinatlı təhsil müəssisələrində tətbiq olunan korreksiya inkişafetdirici proqramını tətbiq edirik. Aparılan statistik təhlil proqramın effektiv olmasını təsdiqləyir. Hərbi liseydə psixoloji maarifləndirmə, psixoprofilaktika, psixoloji diaqnostika, konsultasiya-korreksiya işləri aparırıq. Müharibədən sonrakı dövrdə kursantların psixoloji müdafiə mexanizmlərini daha da gücləndirməyə çalışırıq. Şahid olduqları müharibə onların idrak prosesinə təsir edirdi. Biz də maksimum dərəcədə kursantların müvəffəqiyyət göstəricilərini artırmaq istiqamətində psixoloji iş aparırıq".

Söhbətlərindən öyrənirəm ki, Reyhan xanımın bibisi oğlu Kamran Ağayev Birinci Qarabağ müharibəsində Tərtər istiqamətində gedən döyüşlərdə şəhidliyə yüksəlib.

- Şəhid qanı axmayan torpaqdan Vətən olmaz, - kapitan Maniyeva deyir. - Vətənimizin müstəqilliyi, torpaqlarımızın azad olunması naminə şəhadətə yüksələn gəncliyin olması xalqımızın aliliyinin, böyüklüyünün göstəricisidir. Şəhid verməyən xalqın mənliyi olmaz. Biz xalq olaraq daim şəhidlərimizi ehtiramla anır və gənc nəsli də belə formalaşdırırıq.



Reyhan xanım, həmçinin Milli Müdafiə Universitetinin dissertantıdır. Hal-hazırda da hərbi psixologiya sahəsi ilə bağlı dissertasiya işi üzərində işləyir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ictimai-siyasi, mədəni sahələrdə çoxşaxəli və səmərəli fəaliyyəti Azərbaycan qadınının hərtərəfli inkişafı üçün, sözün əsl mənasında, bir stimuldur. Bu baxımdan Mehriban xanımın dediyi bir kəlamı xatırlayıram: "Hər kəsin yerini və taleyini tarix özü müəyyən edir. Odur ki, həyatda böyük və kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi dərk edilmiş məsuliyyətin imkan verir". Düşünürəm ki, insanların fəaliyyətinin uğur formulu məhz bu dərk olunmuş məsuliyyətdən keçir. Kapitan Reyhan Maniyeva ilə söhbətləşərkən mən də məhz o məsuliyyəti hiss etdim. Qadının həm təbiət, həm də cəmiyyət tərəfindən üzərinə qoyulmuş vəzifələri, həmçinin tarixin müəyyən etdiyi taleyin qisməti kimi dəyərləndirilən missiyaları vardır. Məsuliyyətini dərk edən insan bütün sahələrdəki fəaliyyətini əlaqələndirməyi və hər birinin öhdəsindən gəlməyi bacarır.

Üç övlad anası olan Reyhan xanımın həyat yoldaşı polkovnik-leytenant Tural Maniyev də Azərbaycan Ordusu sıralarında xidmət edir. O, Vətən müharibəsi iştirakçısıdır.

Azərbaycan qadını tarixin bütün dönəmlərində ailə dəyərlərini, ailədəki missiyasını, övlad qarşısındakı borcunu, gələcək nəslə gözəl bir vətəndaş təqdim etməli olduğunu ən ümdə vəzifəsi hesab edib. Bunlarla yanaşı, iş həyatında da uğurlar qazanıb. Deməli, istək, səriştə və məsuliyyətli yanaşma olduğu təqdirdə ən ağır işlərin öhdəsindən gəlmək mümkündür. Reyhan xanımın timsalında düşünürəm ki, Azərbaycan qadını nə ictimai, nə də ailə həyatındakı çətinliklərdən çəkinməməli, onun üzərinə cəsarətlə getməlidir. Çünki bunun üçün bizim həm tarixi, həm də müasir örnəklərimiz var.

Xanım psixoloq onu da vurğuladı ki, 8 ildir hərbi psixologiya istiqamətində işləyir, özünü inkişaf etdirmək üçün davamlı mütaliələr edir. "İşimdə tətbiq edə biləcəyim kurslar olduqda mütləq qatılıram. Psixologiya elə bir elm sahəsidir ki, ildən-ilə yeniliklər artır. Bu yenilikləri öyrənməklə yanaşı, apardığımız işlərdə də istifadə etməyə çalışırıq. Müharibə iştirakçısı olan hərbi qulluqçularımızla psixoloji iş daim diqqət mərkəzimizdədir. Vətən müharibəsində şəhid olanların ailə üzvlərinə də əlimizdən gəldiyi qədər psixoloji dəstək göstəririk".

Bir millətin genində qəhrəmanlıq varsa, o lazımi məqamda özünü büruzə verəcək. Reyhan xanım qeyd etdi ki, 44 günlük Vətən müharibəsində biz bunun şahidi olduq. "Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu Böyük Qələbə qazanaraq dünya hərb tarixinə şanlı səhifələr yazdı".

Cəmiyyətin aydın sabahları qadınlardan da asılıdır. Bu gün Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit qadınlarımızın zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Dövlətimizin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldırır, qadınların bərabər hüquqlarını və bərabər imkanlarını təmin etməyə imkan verir. Əminliklə demək olar ki, bu siyasət qadınları cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verəcəkdir.

Hər insan cəmiyyətdə malik olduğu mənəvi keyfiyyətlərlə tanınır. Kapitan Reyhan Maniyeva kimi...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## **Mövzu:** Əsgərin döyüşə psixoloji hazırlığı qələbənin rəhnidir

**Suallar:**
**1. Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu.**
**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

### Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu

Əsgərin döyüşə psixoloji hazırlığı, hərbi kollektivlərin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti hər bir ordunun döyüş gücünün vacib tərkib hissələrindən biri sayılır. XXI əsrin ən parlaq savaş nümunəsi hesab edilən, 27 sentyabr 2020-ci il tarixdə başlayaraq 44 gündən sonra 10 noyabr tarixində Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşan Vətən müharibəsi Azərbaycan dövlətinin qüdrətini və ordusunun döyüş qabiliyyətini ilk növbədə düşmənlərimizə, sonda isə bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qazanılmış Zəfərin əsasını qoyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu barədə belə demişdir: "44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir".

"Mənəvi-psixoloji vəziyyət" məfhumu qoşunların fəaliyyətinə Azərbaycan Ordusunda yeni quruculuq işlərinin başlanması ilə daxil edilmişdir. Bu onunla şərtlənmişdir ki, hərbi-siyasi vəziyyətin yeni həqiqətləri, qarşıda duran hərbi vəzifələrin xüsusiyyətləri insan amilinin bütün tərkib hissələrinin maksimum fəallaşdırılmasını tələb edir.

44 günlük Vətən müharibəsində Azərbaycan əsgərinin göstərdiyi şücaət və igidlik nümunələri onun psixoloji hazırlığının göstəricisidir. Hələ 14 yaşında ikən hakimiyyətə gəlmiş Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmək uğrunda savaşa qalxarkən belə demişdir: "Biz müharibədə süstlük etsək, onda həm Vətənimizi, həm də həyatımızı itirəcəyik". Atabəy Eldəgiz, Uzun Həsən, Mustafa Kamal Atatürk müharibələr tarixində ona görə iz buraxa bilmişlər və hərb sənəti onların qazandığı şöhrəti ona görə qoruyub saxlayır ki, onlar gözəgörünməyən, lakin "dəhşətli" bir gücdən - döyüşçü psixikasından yararlanmağı bacarmışlar.

Əsgərlərin döyüşlərə psixoloji hazırlığının yüksək dərəcədə olması özünü hərbi qulluqçuların və ilk növbədə Azərbaycan əsgərinin döyüş şəraitindəki davranışında göstərmişdir. Əksinə olduğu hallarda, yəni psixoloji hazırlığı zəif olan hərbçilərin, o cümlədən Azərbaycan torpaqlarını 30 ilə yaxın bir müddətdə qəsb etmiş erməni hərbi qulluqçularının rəftarında açıq-aydın görmək mümkün idi. Onların əksəriyyəti hay-küyə və çaxnaşmaya düşür, əmrləri düzgün yerinə yetirə bilmir və yaxud yerinə yetirmək istəmir, onlarda məqsəd aydınlığı, qətiyyət, döyüş fəallığı, təşəbbüskarlıq və özünənəzarət zəif olur ki, bunları da müharibə zamanı şübhələr, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlı olur. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

Əsgərin psixoloji hazırlığı döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını, fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı, döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri, psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən, yəni hər şeydən öncə insanın əqidəsindən, onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən, verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu, birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını, ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətlərinə tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış, əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi, normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.) aid edilir.

Döyüşə psixoloji hazırlığın üç dərəcəsi var: 1 - aşağı, 2 - orta və 3 - yüksək.

Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri:

- əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır.

Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri:

- özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır. Yüksək səviyyəli psixoloji hazırlığı isə mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq cəhdi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:

- özünəinam və özünütəlqin,
- öz təxəyyülünü idarəetmə,
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

Özünəinam - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

Özünütəlqin - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxululuqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

Özünütəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır;
2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.
3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özünütəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Diqqətin idarə olunması əsgərin təxəyyülünü idarəetməsi ilə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq, daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda (işlək vəziyyətdə) saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Şəhidlərin xatirəsinə həsr olunan anım mərasimləri keçirilib





*<u>Torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Vüsal Məmmədov, Cahan Məmmədzadə və Vətən Müharibəsi Qəhrəmanı Fəqan Zalovun xatirəsinə həsr olunan anım mərasimləri keçirilib.</u>*

Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri, rayon icra hakimiyyətlərinin əməkdaşları, şəhidlərin ailə üzvləri, yaxınları, eləcə də döyüş yoldaşlarının iştirak etdiyi tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlərdə Vətən müharibəsi şəhidlərinin məzarları üzərinə əklillər qoyulub, tər çiçəklər düzülüb və ruhlarına dualar oxunub.

Çıxış edənlər Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Qələbədən, bu Zəfərin qazanılmasında igid oğullarımızın göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# İşçilərin istirahət və asudə vaxtının səmərəli təşkili həmkarlara xas ənənələrin inkişaf etdirilməsinə zəmin yaradır





*<u>8 Noyabr - Zəfər Gününün ikinci ildönümü münasibətilə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi və "Təhsil" Respublika İdman Mərkəzinin Bakı 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin təşkilatçılığı ilə şahmat turniri keçirildi. Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni oxundu.</u>*

Sağlam və gərgin mübarizə əzmində keçən turnirdə Müdafiə Nazirliyinin idarə, bölmə və xüsusi təyinatlı təhsil müəssisələrində çalışan mülki işçilər güclərini sınadılar. Turnirin sonunda Hərbi Nəşriyyatın işçisi Elman Səfərəliyev 3-cü, Hərbi Dəniz Qüvvələrinin nümayəndələri Elbrus Kəlbiyev ikinci, Mirzeynal Hacıyev isə birinci yerə layiq görüldü.

Qaliblərin və iştirakçıların mükafatlandırılma mərasimində çıxış edən Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Zakir Müslümov 8 Noyabr - Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik etdi. "Bu il Vətən müharibəsində qazanılan tarixi zəfərimizin ikinci ildönümünü qeyd edirik. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuz 44 günə düşmən üzərində möhtəşəm qələbə qazandı. Otuz ilə yaxın işğalda olan torpaqlarımız azad olundu. Böyük Qələbə bütün dünyada hərbi gücümüzün, qüdrətimizin, Azərbaycan əsgərinin cəsarətinin, igidliyinin, qəhrəmanlığının, Azərbaycanın haqq səsinin rəmzinə çevrildi. Həmçinin bu qələbə dövlət, xalq, ordu birliyinin yenilməzliyinin göstəricisi oldu. Kollektivimiz adından bu tarixi, möhtəşəm zəfəri xalqımıza yaşadan hərbçilərimizə təşəkkürümüzü bildirir, şərəfli xidmətlərində uğurlar arzulayırıq. Bu müqəddəs yolda canından keçən igidlərimizin əziz xatirəsini dərin ehtiramla yad edir, ailələrinə və yaxınlarına səbr, qazilərimizə şəfa diləyirik".

Çıxışını davam edən komitə sədri mədəni-kütləvi idman tədbirlərinin lazımi səviyyədə təşkilinin işçilər arasında işgüzar mühitin daha da yaxşılaşdırılmasına xidmət etdiyini vurğuladı. Hərbi hissə və müəssisələrdə çalışan Həmkarlar İttifaqı Komitəsi üzvlərinin hüquq və maraqlarının müdafiəsinin qorunmasını, sosial rifah halının yaxşılaşdırılmasını daim diqqətdə saxlayan və bu tədbirlərin ərsəyə gəlməsində onlara yaxından köməklik göstərən Müdafiə naziri general-polkovnik Zakir Həsənova və nazirliyinin digər rəhbər heyətinə komitə adından minnətdarlığını bildirdi.

Digər çıxış edənlər Müdafiə Nazirliyi sistemində çalışan mülki işçilərin istirahət və asudə vaxtının səmərəli təşkilinə xidmət edən belə tədbirlərin işçilər arasında mənəvi birliyin möhkəmləndirilməsinə zəmin yaratdığını qeyd etdilər. Bildirdilər ki, mədəni-kütləvi və idman tədbirlərinin maraqlı keçirilməsi həmçinin, kollektiv üçün əsl bayram, həqiqi istirahət, sağlam həyat deməkdir və belə tədbirlərin təşkili bizim əsas funksiyalarımızdan biri olaraq, fəhlə və qulluqçuların birgə fəal istirahətinin təşkilində əhəmiyyətli rol oynayır, sağlam mühit formalaşdırır, xoş əhval-ruhiyyə aşılayır.

Təbriklər dinlənildikdən sonra qaliblər və iştirakçılar diplomlarla və qiymətli hədiyyələrlə mükafatlandırıldı. Sonda xatirə şəkli çəkdirildi.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İstanbulda törədilən terror aktı ilə əlaqədar saxlanılanların sayı 48-ə yüksəlib



İstanbulda törədilən terror aktı ilə əlaqədar saxlanılanların sayı 48-ə yüksəlib.

Partlayıcı maddəni yerləşdirməkdə şübhəli bilinən suriyalı Əhlam Əlbəşirin qaldığı evdə aparılan axtarış zamanı 3800 dollar və 5 min avro aşkarlanıb.

Xatırladaq ki, noyabrın 13-də İstanbulun İstiqlal prospektində yerli vaxtla təxminən 16:20-də partlayış baş verib. Hadisə nəticəsində 6 nəfər ölüb, 81 nəfər yaralanıb.

## Ukrayna daha 45 hərbçisini vətənə qaytarıb



Noyabrın 11- də Ukrayna və Rusiya arasında daha bir əsir mübadiləsi baş verib, 45 ukraynalı vətənə qayıdıb.

Ukrayna Prezidenti Ofisinin rəhbəri Andrey Yermak bu barədə məlumat verib.

"Biz 45 hərbçini - zabitləri, çavuşları və sıravilləri azad edə bildik. Eyni zamanda, döyüşlərdə həlak olan iki hərbçinin cəsədini də qaytara bildik", - deyə Andrey Yermak əlavə edib.

## Gürcüstan Polşa ilə birlikdə yeni pilotsuz uçuş aparatı istehsal etmək niyyətindədir



Gürcüstan Polşa ilə birlikdə yeni pilotsuz uçuş aparatı (PUA) istehsal etmək niyyətindədir. Bunun üçün Tbilisi yaxınlığında Gürcüstan-Polşa "Delta -Veba" zavodu tikilir.

Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladze zavodda olub, işlərin gedişi ilə maraqlanıb.

Gürcüstan Müdafiə Nazirliyindən bildirilib ki, zavodun tikintisi yaxın vaxtlarda başa çatdırılacaq.

Nazir Burçuladze qeyd edib ki, müəssisə yaxın vaxtlarda Gürcüstan PUA-larını istehsal edəcək.

Qeyd edək ki, "Delta-Vebe" Gürcüstan-Polşa şirkəti Polşanın "WB Electronics" şirkəti ilə Gürcüstanın "Delta" dövlət hərbi elmi-texniki mərkəzi arasında imzalanmış müqavilə əsasında yaradılıb.

Sözügedən müəssisədə gürcü və polşalı mütəxəssislər pilotsuz uçuş aparatlarının istehsalı mövzusunda birgə çalışacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

Tibb xidməti polkovnik-leytenantı Edilxanov Elxan Xalıqverdi oğluna məxsus MN № 0011717 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Leytenant Alıyev Zaynalabdı Bayram oğluna məxsus MN № 0062877 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Gizir Əhmədov Məcid Nadir oğluna məxsus SQ № 0012585 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Gizir Bədəlov Elşən Tərlan oğluna məxsus SQ № 0010774 nömrəli şəxsi vəsiqə blankı itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1070
Nüsxə 4740